*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 1 iyul 2017-ci il № 49 (2166) Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Azərbaycan ilə Polşa arasında siyasi əlaqələr yüksək səviyyədədir

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Polşa Respublikasına iyunun 26-da başlanmış rəsmi səfərinin gündəliyi zəngin olub.*



AZƏRTAC xəbər verir ki, hər iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşündə Prezident Andjey Duda bildirib ki, Polşa Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi əsasında həll olunmasını dəstəkləyir.

Prezident İlham Əliyev Azərbaycan-Polşa siyasi əlaqələrinin yüksək səviyyədə olduğunu bildirdi, bu səfərin ikitərəfli münasibətlərin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Polşa Prezidenti Andjey Dudanın iştirakı ilə sənədlərin imzalanması mərasimi olub. Prezident İlham Əliyev və Prezident Andjey Duda "Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında Strateji Tərəfdaşlıq və İqtisadi Əməkdaşlığa dair Yol Xəritəsi haqqında Birgə Bəyannamə"ni imzaladılar.

Energetika, nəqliyyat və nəqliyyat infrastrukturu, dəmir yolları sahəsində strateji əməkdaşlıq haqqında və s. anlaşma memorandumları, "2005-ci il martın 30-da Varşava şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Sazişdə dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında Protokol" imzalandı.

Sonra Polşa Respublikasının Prezidenti Andjey Duda və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata bəyanatlarla çıxış etdilər.

Polşanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsinə dəstək verdiyi üçün Azərbaycan Prezidentinə səmimi qəlbdən təşəkkürünü bildirən Polşa Prezidenti qeyd etdi ki, ölkələrimiz arasında imzalanmış sənədlərin məqsədi əməkdaşlığın, xüsusən də iqtisadi, elmi, siyasi əməkdaşlığın genişləndirilməsi deməkdir.

Polşa və Azərbaycanı iki dost ölkə adlandıran Azərbaycan Prezidenti mətbuata bəyanatında vurğuladı ki, bu dostluq bundan sonra da gücləndiriləcək.

İmzalanmış sənədlərin əməkdaşlığımızın perspektivlərini müəyyən etdiyini bildirən dövlətimizin başçısı prezidentlər tərəfindən imzalanmış strateji tərəfdaşlığa və iqtisadi əməkdaşlığa dair Birgə Bəyannaməni xüsusilə yüksək dəyərləndirdi: "Bu, çox ciddi siyasi sənəddir. Bu bəyannamə əlaqələrimizin demək olar ki, bütün istiqamətlərini, həmçinin siyasi, iqtisadi, enerji, nəqliyyat məsələlərini ehtiva edir. Bu bəyannamədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında da deyilir və göstərilir ki, bu münaqişə ölkələrin suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında öz həllini tapmalıdır. Bu ədalətli mövqeyə görə, cənab Prezident, Sizə minnətdarlığımı bildirmək istəyirəm. Əlavə etmək istəyirəm ki, Azərbaycan dövləti və xalqı erməni işğalından 20 ildən çoxdur ki, əziyyət çəkir. Bu işğal nəticəsində torpaqlarımızın 20 faizi işğal altındadır. Bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Bu münaqişə ancaq beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkələrin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Bu tezislər Birgə Bəyannamədə öz əksini tapmışdır".

Çıxışının sonunda Azərbaycan prezidenti iki ölkə arasında əlaqələrin humanitar aspektinə də toxunaraq qeyd etdi ki, polyakları və Polşanı yaxşı tanıyırıq. Müxtəlif dövrlərdə Azərbaycanda çalışmış və ölkəmizə xidmət etmiş məşhur polyak memarların, mühəndislərin, ictimai xadimlərin xatirəsi Azərbaycan xalqı tərəfindən yüksək hörmətlə anılır. "Polyaklar 1918-ci ildə müsəlman Şərqində ilk demokratik respublikanın rəhbərliyində də təmsil olunmuşlar. Yəni, tariximizin bu səhifələri bugünkü dostluğun təməlidir".

Azərbaycanı Avropa ilə Asiyanı birləşdirən önəmli körpü hesab edən Polşa Prezidenti Andjey Duda Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafətdə çıxış edərkən qeyd etdi ki, xalqlarımızı bir-birinə bağlayan dostluq münasibətləri dərin tarixi köklərə əsaslanır. Polyaklar Azərbaycana artıq XVIII əsrdən başlayaraq üz tutmuş, burada özlərinə ikinci yurd tapmış və yeni vətənlərinin inkişafında iştirak etmişlər.

"XX əsrdə müstəqilliyə və azadlığa olan məhəbbətimiz bizi bir-birimizə yaxınlaşdırdı. 1918-1920-ci illərdə - Azərbaycanın azadlıq uğrunda mübarizə apardığı dövrdə başda öz həyatını Azərbaycanın müstəqilliyinə qurban vermiş general Maçey Süleyman Sulkeviç olmaqla Azərbaycan Xalq Cümhuriyyətinin ordusunda və dövlət aparatında bir çox polyak xidmət göstərmişdir. İkinci Dünya müharibəsi illərində bizim azadlığımızı isə Polşa Ordusu sıralarında polkovnik Vəli bəy Yadigar qorumuşdur. Onların Varşava şəhərinin Praqa rayonunda ucaldılmış birgə abidəsi bu qarşılıqlı əlaqələrin təcəssümüdür".

Müasir diplomatik əlaqələrimizin tarixi 25 illik dövrü əhatə etsə də, Azərbaycan Prezidentinin sözlərinə görə, xalqlarımız arasında əsrlərdən bəri davam edən dostluq və əməkdaşlıq ənənələri mövcuddur. Hələ XV əsrdə Azərbaycan hökmdarı Uzun Həsənin Polşa Kralı Yagello ilə sıx təmasları olmuşdur. Sonrakı dövrlərdə də münasibətlərimiz qorunub saxlanılmışdır. Şərqdə ilk demokratik respublikanın - 1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin həyatında polyaklar fəal iştirak etmişlər.

Ədəbi, mədəni, elmi əlaqələrimizin də zəngin tarixi olduğunu söyləyən dövlətimizin başçısı bildirdi ki, bu əlaqələr bu gün də davam və inkişaf etməkdədir. Xalqlarımız arasında formalaşan möhkəm dostluq əlaqələri bugünkü münasibətlərimiz üçün gözəl zəmin yaratmışdır. Hazırda Azərbaycan ilə Polşa arasında siyasi əlaqələr yüksək səviyyədədir.

Azərbaycanın regionda təhlükəsizliyə, sabitliyə, inkişafa və əməkdaşlığa töhfə verdiyini qeyd edən Prezident İlham Əliyev dedi: "Lakin regionun ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmamış qalır. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi - tarixi torpağımız olan Dağlıq Qarabağ və ətrafındakı yeddi rayon işğal olunmuş və bu ərazilərdə etnik təmizləmə siyasəti həyata keçirilmiş, bir milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Dünya birliyi və beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin beynəlxalq normalara uyğun ədalətli həllinin tərəfdarıdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Eyni zamanda, ATƏT, Avropa Parlamenti, Avropa Şurası, NATO, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri vardır. Mövcud status-kvo qəbuledilməzdir və işğal edilmiş ərazilər qeyd-şərtsiz azad olunmalıdır".

**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyinin rəhbərliyi Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib





İyunun 26-da Müdafiə Nazirliyinin rəhbərliyi və şəxsi heyəti Silahlı Qüvvələr Günü münasibətilə Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə və Zərifə xanım Əliyevanın məzarına əklil və gül dəstələri qoyulub, xatirələri hörmət və ehtiramla yad edilib.

Sonra Müdafiə Nazirliyinin şəxsi heyəti Şəhidlər xiyabanını ziyarət edib. Vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş vətəndaşlarımızın xatirəsinə ucaldılmış Şəhidlər kompleksindəki Əbədi məşəlin önünə və şəhid məzarlarına da əklil və gül dəstələri qoyublar.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə naziri NATO toplantısında iştirak edib



*İyunun 29-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Brüssel şəhərində (Belçika Krallığı) Şimali Atlantika Şurasının Əfqanıstan İslam Respublikasındakı Qətiyyətli Dəstək Missiyası (QDM) formatında Müdafiə nazirləri səviyyəsində keçirilən görüşdə iştirak edib.*

Toplantıda Əfqanıstandakı təhlükəsizlik vəziyyəti, Qətiyyətli Dəstək Missiyasının gələcəyi, Əfqan Müdafiə və Təhlükəsizlik qüvvələrinin inkişafı üzrə müzakirələr aparılıb. Görüşdə Qətiyyətli Dəstək Missiyasına töhfə verən ölkələrin müdafiə nazirləri ilə yanaşı, Əfqanıstanın Müdafiə naziri, o cümlədən Avropa İttifaqının Ali Nümayəndəsi və BMT Baş Katibinin Xüsusi Nümayəndəsi də iştirak ediblər.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov səfər çərçivəsində NATO Baş Katibinin müavini xanım Rouz Gotemoller ilə də görüşüb. Tərəflər Azərbaycan-NATO münasibətləri, müdafiə sahəsində Alyansla qarşılıqlı faydalı əməkdaşlıq və ölkəmizin Qətiyyətli Dəstək Missiyasına verdiyi töhfə ətrafında fikir mübadiləsi aparıblar. Görüş zamanı Müdafiə naziri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə NATO Baş katibinin müavininə məlumat verib.

Səfər çərçivəsində general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının Milli Müdafiə naziri Fikri Işıkla işçi görüşü keçirərək ikitərəfli əməkdaşlıq və regional təhlükəsizlik məsələlərini müzakirə edib, eləcə də Qətiyyətli Dəstək Missiyasına gələcək töhfələr mövzusunda fikir mübadiləsi aparıblar.



Müdafiə naziri general-polkovnik Zakir Həsənov Makedoniya Respublikasının yeni təyin olunmuş Müdafiə naziri Radmila Şekerinska ilə nəzakət görüşü də keçirib.

Qeyd edək ki, hazırda Silahlı Qüvvələrimizin 94 nəfərlik sülhməramlısı Əfqanıstanda həyata keçirilən Qətiyyətli Dəstək Missiyasında iştirak edir. Eyni zamanda Azərbaycan Respublikası NATO missiyasına multimodal tranzit, təlim və Əfqan Milli Ordusu üzrə Etimad Fonduna maliyyə dəstəyi ilə töhfə verməkdədir.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Bir qrup hərbi qulluqçuya polkovnik hərbi rütbəsi verilib

*Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü ərəfəsində bir qrup zabitə növbəti polkovnik hərbi rütbəsi verilib.*

Tədbir ümummilli lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Müdafiə nazirinin müvafiq əmrləri şəxsi heyətə çatdırıldıqdan sonra general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində Silahlı Qüvvələrdə görülən irimiqyaslı quruculuq işlərindən və həyata keçirilən ardıcıl tədbirlərdən danışıb.

Nazir vurğulayıb ki, dövlətin orduya göstərdiyi bu yüksək diqqətə cavab olaraq şəxsi heyət üzərinə düşən vəzifə borcunu vicdanla yerinə yetirməli, xalqın və dövlətin etimadını doğrultmaq üçün bütün vəzifə və tapşırıqların öhdəsindən layiqincə gəlməlidir.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*30 iyun 2017-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və 60 millimetrlik minaatanlardan (7 mərmi) istifadə etməklə sutka ərzində atəşkəs rejimini 126 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar, Noyemberyan rayonunun Şavarşavan kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Qaymaqlı, Fərəhli kəndlərində, Berd rayonunun Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi, Ağbulaq, Muncuqlu kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Şuraabad, Tağıbəyli, Baş Qərvənd, Qaraqaşlı, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Hərbi təhsil*

# Kadr hazırlığı - buraxılış mərasimi

Peşəkar kadrların hazırlanması keyfiyyətli təhsildən keçir. Ona görə Azərbaycan Silahlı Qüvvələrində peşəkar kadr hazırlığı, o cümlədən şəxsi heyətin sağlamlığı keşiyində dayanan hərbi tibb mütəxəssislərinin hazırlanması daim ordu rəhbərliyinin diqqət mərkəzindədir. İyunun 29-da Azərbaycan Tibb Universiteti-



nin Hərbi Tibb fakültəsi məzunlarının növbəti buraxılış mərasimi keçirildi. Tədbirdə Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov iştirak edirdi.

Fakültənin yeni və müasir tədris korpusunda keçirilən mərasimdə öncə ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Hərbi Tibb fakültəsinin rəisi tibb xidməti polkovniki Çingiz Əlləzov tədbiri açaraq məzunları buraxılış münasibətilə təbrik etdi. Ümummilli lider Heydər Əliyevin ordu quruculuğuna böyük töhfələr verdiyini söyləyən fakültə rəisi qeyd etdi ki, Azərbaycan Tibb Universitetinin Hərbi Tibb fakültəsi Ulu Öndərin 25 may 2000-ci il tarixli sərəncamına əsasən yaradılıb və Müdafiə nazirinin 10 dekabr 2000-ci il əmri ilə hərbi tibbi təhsilin bütün formaları burada mərkəziləşdirilib.

İndiyədək ordumuzun ehtiyacları üçün yüzlərlə hərbi həkimin hazırlandığını söyləyən tibb xidməti polkovniki qeyd etdi ki, Hərbi Tibb fakültəsində nizam-intizamı, eyni zamanda təhsilin keyfiyyətini yüksəltmək məqsədilə müəllim və zabit heyəti cari tədris ilində səylə çalışıb və müsbət nəticələr əldə edib.

Hərbi Tibb fakültəsini müvəffəqiyyətlə bitirmələri münasibətilə gənc hərbçi həkimləri təbrik edən polkovnik Əlləzov onlara əsgər və zabitlərimizin, onların ailə üzvlərinin sağlamlığı keşiyində mətin durmağı, Hippokrat andına həmişə sadiq qalmağı arzuladı.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi, general-leytenant Nizam Osmanov da çıxış edərək fakültənin məzunlarını buraxılış münasibətilə təbrik etdi. Ordu quruculuğu sahəsində ölkəmizin böyük nailiyyətlər əldə etdiyini vurğulayan Baş Qərargah rəisinin müavini bildirdi ki, Silahlı Qüvvələrimizi elmi əsaslarla formalaşdıran ümummilli lider Heydər Əliyevin başladığı işləri onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev ləyaqətlə davam etdirir. "Qətiyyətlə deyə bilərik ki, ordumuz işğal edilmiş torpaqlarımızı azad etməyə qadirdir. Aprel döyüşləri Silahlı Qüvvələrimizin nəyə qadir olduğunu bir daha göstərdi. Həmin döyüşlər zamanı hərbi həkimlər də yüksək peşəkarlıq nümayiş etdirdilər".

Hərbi tibb mütəxəssislərinin hazırlanmasına toxunan general-leytenant N.Osmanov qeyd etdi ki, hərbi tibb təhsil sistemi günü-gündən təkmilləşdirilir, təhsilin yüksək səviyyədə təşkil edilməsi üçün Hərbi Tibb fakültəsi ən müasir tibbi avadanlıqlar və bütün kommunikasiya sistemləri ilə təchiz edilib. Gələcəyin hərbi həkimlərinin imtahanlarda yüksək bilik nümayiş etdirməsini Azərbaycan Tibb Universitetinin professor və müəllim heyətinin vurğulaması xoşdur.

Yüksək rütbəli zabit bildirdi ki, hərbi həkim və hərbi feldşer ixtisası üzrə tam kursu bitirmiş indiki məzunlara Müdafiə nazirinin əmri ilə tibb xidməti leytenantı və gizir rütbəsi verilib və onlar Silahlı Qüvvələrimizdə xidmətə başlayacaqlar.

Hərbi həkim adını fərəhlə daşımalı olduqlarını məzunlara bir daha xatırladan natiq onlara gələcək xidmətlərində uğurlar arzuladı.

Məzunlar adından çıxış edən tibb xidməti leytenantı, təhsil əlaçısı Araz Əliyev hərbi həkim kimi daim ordumuzun şəxsi heyətinin sağlamlığı keşiyində duracaqlarını, Hippokrat andına sadiq qalacaqlarını və daim öz ixtisaslarını artırmaq üçün çalışacaqlarını söylədi, hərbi tibbi təhsilin sirlərinə yiyələnmək üçün Hərbi Tibb fakültəsində yaradılmış şəraitə görə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə məzunlar adından minnətdarlığını ifadə etdi.

Sonra Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi, general-leytenant Nizam Osmanov hərbi tibb mütəxəssislərinin hazırlanmasında xidmətlərinə görə fakültənin bir qrup zabitini fəxri fərmanlarla mükafatlandırdı. Həmçinin təhsildə qazandığı nailiyyətlərə görə məzunlardan tibb xidməti leytenantları Araz Əliyev, Vüsal Xəlilli, Zülfi Cabbarov və gizir Seyid Alisgəndərova Müdafiə naziri general-polkovnik Zakir Həsənov adından qiymətli hədiyyələr təqdim etdi.

Mərasimin sonunda tədbir iştirakçıları xatirə şəkli çəkdirdilər.

* * *

İyunun 23-də Silahlı Qüvvələrin Hərbi Akademiyasında Əməliyyat-taktiki fakültəsinin, həmçinin Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursunun buraxılışına həsr olunan mərasim keçirildi.

Tədbir açıq elan edildikdən sonra ümummilli lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi və dövlət himni ifa olundu.

Mərasimdə məruzə ilə çıxış edən akademiyanın rəisi general-leytenant Heydər Piriyev ordu quruculuğu sahəsində həyata keçirilən fəaliyyətlərdən danışdı və məzunları təbrik edərək onlara uğurlar dilədi.



Məzunlar adından polkovnik Eldar Abdullayev və polkovnik-leytenant Rüstəm Cavadov çıxış edərək yaş kötüyünə xatirə lövhələrini vurdular.

Tədbirin sonunda məzunlarla xatirə şəkli çəkildi.

* * *

Bu günlərdə C.Naxçıvanski adına Hərbi Liseydə kursantların 45-ci buraxılışına həsr olunmuş təntənəli mərasim keçirildi.



Tədbirdə ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad olundu. Azərbaycanın Dövlət himni ifa edildi. Hərbi liseyin rəisi vəzifələrini icra edən polkovnik Elman Namazov mərasimin iştirakçılarını salamladı və məzunları əlamətdar gün münasibətilə təbrik etdi. Sonra çıxışına davam edərək dedi:

- Əsası 1971-ci ildə ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Silahlı Qüvvələr üçün zabit kadrlarının hazırlanmasında əvəzsiz xidmətləri var. Bu təhsil ocağının 30 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Ulu Öndərimiz lisey haqqında bu sözləri demişdir: "Sizə səmimi deyirəm, Cəmşid Naxçıvanski adına Hərbi Lisey mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona, bax, bu cür baxacağam."

Polkovnik Elman Namazov çıxışında təhsil ocağının maddi-texniki bazasının gündən-günə təkmilləşməsindən və torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə məktəb məzunlarının göstərdiyi qəhrəmanlıqlardan da söz açaraq bildirdi ki, Hərbi liseydə təlim və tədris prosesi günü-gündən təkmilləşir. "Hərbi liseyin maddi-texniki tədris bazası müasir tələblərə cavab verir, burada Azərbaycan Respublikası Silahlı Qüvvələri üçün peşəkar, vətənpərvər kadrların hazırlanması üçün hər cür şərait yaradılmışdır. Biz bundan sonra da bütün imkanlardan istifadə edərək Hərbi liseydə təhsil sisteminin təkmilləşdirməsini davam etdirəcəyik. Çünki hərbi təhsil sisteminin daim inkişaf etdirilməsi ordumuzun yüksək ixtisaslı zabit kadrları ilə təmin olunmasının qarantıdır".

O, qeyd etdi ki, məzunlarımız daim Azərbaycan Respublikasına xidmət edərək, Vətən torpağı üçün canlarını belə əsirgəməmişlər. "Onlardan on nəfəri Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülmüş, yüzlərlə məzunumuz isə müxtəlif orden və medallarla təltif olunmuşlar. Aprel döyüşləri zamanı erməni işğalçılarına tutarlı cavab verən hərbiçilərimizin arasında liseyimizin məzunları da böyük qəhrəmanlıqlar göstərmişlər. Dövlət başçısı müvafiq fərmanı ilə 2016-cı ilin aprel döyüşləri zamanı göstərdikləri igidliklərə görə hərbi qulluqçuları yüksək qiymətləndirdi. Onlardan polkovnik Şükür Həmidov və polkovnik-leytenant Murad Mirzəyevə Azərbaycanın Milli Qəhrəmanı, polkovnik Mayis Bərxudarova isə general-mayor ali hərbi rütbəsi verildi. İnanıram ki, sizin sıralarınızdan da Silahlı Qüvvələrin əsl zabitləri, generalları və admiralları çıxacaqdır".

Sonra Hərbi liseyin müəllimi Vüsalə Nuruyeva, valideyn Leyla Məmmədova və başqaları çıxış edərək kursantları məzun günü münasibəti ilə təbrik etdilər. Kursantlar adından çıxış edən Anar Ağazadə bildirdi ki, komandanlığın onlara göstərdikləri etimadı doğruldaraq dövlətə gərəkli vətəndaş, orduya dəyərli zabit olacaqlar.

Tədbirə dəvət olunmuş Nəsimi rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov da çıxış edərək bildirdi ki, bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ordu quruculuğu istiqamətində aparılan islahatlar uğurlu nəticələr verir. Xalqın güclənən orduya inamı və sevgisi artır.

Sonra Nəsimi rayon İcra Hakimiyyəti tərəfindən təhsildə və nizam-intizamda fərqlənən bir qrup kursanta qiymətli hədiyyə təqdim edildi.

Yaş kötüyünə rəmzi nişanı kursant Murad Tahirli vurdu.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin bayrağının təhvil-təslim mərasimi də yaddaqalan oldu.

Kursantlar təntənəli marşla tribunanın önündən keçdilər.

**"Azərbaycan Ordusu"**

# Hərbi hissələrimizdə "Açıq qapı" günü keçirilib



*Müdafiə nazirinin tapşırığına əsasən, iyunun 26-da bütün hərbi hissələrdə "Açıq qapı" günü keçirilib. Silahlı Qüvvələr Günü və Ramazan bayramına təsadüf edən bu tədbirlərdə ənənəvi olaraq ümummilli liderimiz Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan insanların xatirəsi ehtiramla yad edilib. Dövlət himni ifa olunub. Həmçinin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bayramlar münasibətilə şəxsi heyətə təbriki oxunub.*

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun göstərişinə əsasən, ordumuzda "Açıq qapı" günlərinin keçirilməsi xoş bir ənənəyə çevrilib. Belə əlamətdar günlərdə hərbi hissələrimizdə qapılar qonaqların üzünə taybatay açılır, övladları ilə görüşə gələn valideynlərlə yanaşı, şəhid ailələrinin, dövlət təşkilatlarının, ictimai birliklərin nümayəndələri, məktəblilər əsgərlərimizin xidmət şəraiti ilə tanış olmaq imkanı qazanırlar.

Tədbirin müəyyən edilmiş vaxtında qonaqlar hərbi hissəyə dəvət edildilər və ağacların kölgəsində düzülmüş stolların ətrafında öz yerlərini tutdular.

General-mayor Xaqani Cəbrayılov qonaqları, hərbi qulluqçuları Ramazan bayramı və Silahlı Qüvvələr Günü münasibətilə təbrik etdi, onlara öz xoş arzularını çatdırdı. Yüksək rütbəli zabit bu gün Cənubi Qafqazın ən qüdrətli güc strukturuna çevrilmiş Azərbaycan Ordusunun inkişafında Ümummilli Liderin əvəzsiz rolundan danışdı. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyilə bu gün ordu quruculuğu sahəsində böyük nailiyyətlər qazanıldığını, hərbi hissələrimizin yüksək səviyyədə təmin edildiyini toplaşanların diqqətinə çatdırdı.

"Doğrudan da, Silahlı Qüvvələrimizin son illərdə həm təminat və təchizat, həm də döyüş hazırlığının yüksəldilməsi baxımından əldə etdiyi uğurlar hər bir vətənsevər azərbaycanlının iftixarına çevrilib. Ordumuzun nəyə qadir olduğunu ötən ilin aprel döyüşləri zamanı hər birimiz gördük və qürur hissi keçirdik. Eyni zamanda işğalçı Ermənistanın silahlı birləşmələri də bu gücün-qüdrətin qarşısında duruş gətirməyərək vaxtilə havadarlarının dəstəyilə işğal etdikləri xeyli ərazini tərk edib qaçdılar," - deyə general bildirdi.

"Açıq qapı" günündə komandanlıq bayram münasibətilə konsert proqramı təşkil etmişdi. Əsgərlər, qonaqlar ürəyəyatımlı musiqi nömrələrinə qulaq asdılar, ortaya çıxaraq doyunca rəqs etdilər.

Təbii ki, əsgərlərin valideynlərini, yaxınlarını, qonaqları şəxsi heyətin məişət şəraiti, gərgin xidmət vaxtından sonra istirahəti, qidalanması xüsusilə maraqlandırırdı. Onlar hərbi hissənin yataqxanası, məişət otaqları, yeməkxanası ilə yaxından tanış oldular. Təmiz və səliqəli əsgər çarpayılarına diqqət yetirən ata və analar övladları üçün yaradılmış şəraitdən yetərincə razı qaldılar. Doğrudan da, hər cür qayğı ilə əhatə edilmiş Vətən oğullarına yalnız canbaşla xidmət etmək qalır.

Füzuli İsayev Sabirabad rayonundan ailəsilə birlikdə gəlmişdi. Oğlu Əli ordu sıralarına çağırılaraq xidmətə bu hərbi hissədə başlayıb.

- Mən buraya artıq üçüncü dəfədir ki, gəlirəm, - əsgər valideyni deyir. - Təəssüratlarımız əladır. Əsgərlər üçün hər bir şərait yaradılıb. Məişət şəraitləri, qidalanmaları ilə yaxından tanış olmuşuq. Hər şey yüksək səviyyədədir. Zabitlər tələbkarlıqla yanaşı, əsgərlərə çox diqqətlidirlər. Bir sözlə, hərbi hissə komandanlığından çox razıyıq. Ordumuz üçün belə şərait yaratdığına görə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevə, həmçinin Müdafiə naziri general-polkovnik Zakir Həsənova dərin minnətdarlığımı bildirirəm.

Silahlı Qüvvələr Gününə həsr edilmiş "Açıq qapı" günü həm hərbi hissənin şəxsi heyəti üçün, həm də qonaqlar üçün unudulmaz hadisəyə çevrildi.

* * *

Səhər tezdən bayramsayağı bəzədilən "N" hərbi hissəsinin qarşısında respublikamızın müxtəlif bölgələrindən gələn valideyn və ictimaiyyət nümayəndələri ilə rastlaşırıq. Ordu və cəmiyyət münasibətlərinə yeni baxış kimi qəbul edilən "Açıq qapı" günləri xalqın orduya inamının parlaq təzahürüdü.

İnsanlar gözlərdə öz əksini tapan sevinclə hərbi hissənin ərazisinə daxil oldular. Öz övladları ilə görüşmək, onların xidmət etdiyi hərbi hissə və zabit heyəti ilə yaxından tanış olmaq valideynlərin sevincini ikiqat artırıb.

Polkovnik Qədir Nəsibov şəxsi heyəti və qonaqları salamlayaraq bayram münasibətilə onları səmimi-qəlbdən təbrik etdi və bildirdi ki, Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini qorumağa qadir olan qüdrətli ordu məhz ulu öndər Heydər Əliyevin siyasi qətiyyətinin nəticəsi olaraq formalaşıb. Ordu quruculuğu sahəsində müdrik rəhbərin strateji siyasətini uğurla həyata keçirən Prezident Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı ilə ölkədə müasir hərbi sənaye kompleksinin yaradılması, peşəkar kadr hazırlığının təkmilləşdirilməsi prosesi uğurla həyata keçirilir.

Zabit çıxışında onu da qeyd etdi ki, peşəkar ordusu olan xalqın müstəqilliyi də əbədidir. "Azərbaycanda da ordu quruculuğuna dair mühüm tədbirlər ardıcıl surətdə, dünya təcrübəsi nəzərə alınmaqla həyata keçirilir. Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, müdafiə sənayesi potensialının artırılması istiqamətində atılan addımlar ordumuzun gücünə əlavə güc qatır. Odur ki, millətimizin güvənc yeri, qürur, ləyaqət rəmzi olan Azərbaycan Ordusu xalqımızın milli düşüncəsində yer alır, dövlətimizin varlıq, mövcudluq və milli kimlik meyarı kimi çıxış edir. Xalqımızın Silahlı Qüvvələrə olan inamı isə ölkəmizin milli təhlükəsizliyinin təmin olunmasında ordunun şəxsi heyətinə böyük etimad yaradır. Bununla yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin müasir Azərbaycana yadigar qoyduğu bu dəyərli sərvət - milli ordumuzun potensialı, artan müdafiə xərclərimiz bizi əsas məqsədimizə - işğal altında qalan torpaqlarımızın azad olunmasına daha da yaxınlaşdırır".



Sıra meydanında nümayiş etdirilən döyüş texnikası və müxtəlif növ silahlar qonaqların marağına səbəb oldu. Əsgər valideynləri, yaxınları və digər qonaqlar hərbi hissənin rəhbərliyi ilə birgə əsgər yataqxanası, məişət otaqları, hamam-camaşırxana kompleksi və yeməkxana ilə yaxından tanış oldular.



Hərbi hissə ilə tanışlıq zamanı qonaqlara xidmət şəraiti və əsgərlərin gündəlik həyat tərzi barədə ətraflı məlumat verildi. Fürsətdən istifadə edib valideynlərin təəssüratları ilə maraqlanıram.

Ağdaş rayon sakini, II qrup Qarabağ əlili, əsgər atası Əbdüləli Qasımov söhbət zamanı bildirdi ki, ordu quruculuğunun bariz nümunəsi gözümüzün önündədir: "Mən özüm Azərbaycan Silahlı Qüvvələrində torpaqlarımızın bütövlüyü uğrunda vuruşanlardan olmuşam. Sağlamlığımı, gəncliyimi bu yolda qurban vermişəm. Buna da peşiman deyiləm. İndi övladım mənim yolumu davam etdirir, Vətənə xidmət edir. O dövrlə indiki dövr arasında müqayisəyə gəlməz dərəcədə fərq var. Bu gün ordumuz yüksək səviyyədə qurulub, müasir tələblərə, beynəlxalq standartlara cavab verir. İndi bu ordu doğma torpaqlarımıza qayıtmaq arzumuzu tam reallaşdırmaq əzmindədir. Buna görə Ali Baş Komandanımıza minnətdarlığımı bildirirəm".

Əsgər atası Rahib Tahirov bildirdi: "Bu gün ordumuzun yaranmasının 99 ili tamam olur. Müəyyən mərhələlərdən keçən Azərbaycan Ordusu artıq regionda güc sahibinə çevrilib. Ötən əsrin əvvəllərində yaradılan milli ordu birləşmələri bu gün Azərbaycan Ordusuna canlı miras qoyub. Bu mirasın təməlində düşmənə aman verməmək, hər zaman mətin olmaq və Vətəni qorumaq, onun adını uca tutmaq kimi şərəfli missiya dayanır. Bu missiyanın daşıyıcıları bizim oğullarımızdır. İnanırıq ki, övladlarımız, əsgər balalarımız şərəfli missiyanın öhdəsindən layiqincə gələcək ".

Tədbirin sonunda keçirilən konsert proqramında müğənnilər Musa Musayev, Təranə Qumral, Rüfət Axundov, Əlikram Bayramov və başqaları əsgərlərə xoş ovqat bəxş etdilər.

**(Ardı 5-ci səhifədə)**

# Hərbi hissələrimizdə "Açıq qapı" günü keçirilib

(Əvvəli 4-cü səhifədə)



Hərbi hissə komandiri şəxsi heyətin "Açıq qapı" günü tədbirinə hazır olması barədə general-mayor Mayis Bərxudarova raport verdi.

Qonaqları və bütün tədbir iştirakçılarını bayramlar münasibətilə təbrik edən komandir bildirdi ki, bu bölgədəki hərbi hissələrin şəxsi heyəti də ötən ilin aprel döyüşlərində işğal olunmuş torpaqlarımızın bir qismini düşməndən azad edib və hazırda həmin yüksəkliklərdə üçrəngli bayrağımız dalğalanır. Komandir heyəti başda olmaqla bir çox hərbi qulluqçular bu döyüşlərdə şəxsi şücaət və qəhrəmanlıq nümunələri göstəriblər.

O, çıxışında Silahlı Qüvvələrimizin keçdiyi döyüş yolundan, ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra baş vermiş dəyişikliklərdən, dahi rəhbərin layiqli davamçısı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi illərdə ordumuzun qazandığı nailiyyətlərdən söz açdı. "Müasir ordu quruculuğu strategiyası Ulu Öndərin adı ilə bağlıdır. Onun uzaqgörənliyi sayəsində ordumuzda mühüm nailiyyətlər baş verib. Bu gün Ali Baş Komandan İlham Əliyevin orduya göstərdiyi diqqət və qayğının nəticəsidir ki, bütün hərbi hissələrdə şəxsi heyətin nümunəvi xidməti üçün hərtərəfli şərait yaradılıb. Hər bir əsgər ona təhkim olunmuş silahı mükəmməl mənimsəyib və istifadə etməyi bacarır. Hamını əmin edirəm ki, Azərbaycan əsgəri işğal altındakı torpaqları azad etməyə hər an hazırdır. Artıq mənfur düşmən də bilir ki, bu gün Azərbaycan Ordusu Qafqazda ən güclü ordudur. Mən bir daha sizi rəhbərlik etdiyim kollektiv adından təbrik edir, hər kəsə xidmətdə uğurlar arzulayıram."



Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov da öz çıxışında şəxsi heyəti əlamətdar hadisələr münasibətilə təbrik etdi. "Silahlı Qüvvələrin yaranması ən şərəfli, ən qürurverici və ən yadda qalan gündür. Yuxarı komandanlığın hər iki bayram münasibətilə təşkil etdiyi "Açıq qapı" günü tədbiri xalqla ordunun sıx birliyinin göstəricisidir. Xalqla ordunun birliyi həm xalqın qüdrətini artırır, həm də ordunu daha qüvvətli edir. Bu gün biz dövlətimizin əsgərlər üçün yaratdığı şəraiti görərkən çox sevinirik. Ordumuzda böyük islahatlar aparılıb. Bu gün güclü, müasir silah və texnikalarla təchiz olunmuş qüdrətli ordumuz var. Ötən iin aprel döyüşlərində bir daha Silahlı Qüvvələrimizin yüksək döyüş əzminin şahidi olduq. İnanırıq ki, çox yaxın zamanda Azərbaycan Ordusu doğma torpaqlarımızı düşməndən azad edəcək. Arzu edirəm ki, gələn il ordumuzun 100 illiyini böyük təntənə ilə Qarabağımızda qeyd edək."

Daha sonra çıxış edən millət vəkili Adil Əliyev, "Müharibə Veteranı qadınlarına Sosial Yardım" ictimai birliyinin nümayəndələri Radə və İradə xanım, vətənpərvərlik mahnıları ifaçısı Şəmistan Əlizamanlı və başqaları şəxsi heyəti bayram münasibəti ilə təbrik edərək ən xoş arzularını bölüşdülər.

Təbii ki, əsgər valideynlərini, yaxınlarını və digər qonaqları şəxsi heyətin məişət şəraiti, gündəlik gərgin xidmətindən sonra istirahəti, qidalanması da maraqlandırıb. Valideyn və ictimaiyyətin nümayəndələri hərbi hissənin yataqxanası, məişət şəraiti, sıra meydanında düzülmüş silah və avadanlıqlarla, şəxsi heyətin gündəlik qida rasionu və əşya təminatı ilə yaxından tanış oldular.

* * *

"N" hərbi hissəsində keçirilən "Açıq qapı" günü tədbirində polkovnik İlqar Lətifov valideynlər qarşısında çıxış edərək bildirdi ki, Azərbaycan Ordusu qısa zaman ərzində böyük inkişaf yolu keçib. "Azərbaycan Silahlı Qüvvələrinin qısa bir zamanda tam formalaşması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Onun siyasi kursunun davamçısı Prezident, Ali Baş Komandan İlham Əliyev Azərbaycanda siyasi hakimiyyətinin ilk günlərindən ordunun inkişafına və döyüş qabiliyyətinin artırılmasına böyük diqqət göstərir.

Qüdrətli Azərbaycan Ordusunun olması hər bir Azərbaycan vətəndaşının arzusu idi. Artıq bu arzu deyil, reallıqdır! Bu gün ordumuzun qarşısında duran əsas vəzifə torpaqlarımızı işğaldan azad etməkdir. Azərbaycan Silahlı Qüvvələri tarixi vəzifənin öhdəsindən gəlməyə tam hazırdır! Müstəqilliyimizi əbədi qorumaq, ərazi bütövlüyümüzü bərpa etmək gücündədir!"

Polkovnik-leytenant Asif Fərəcov da çıxışında bildirdi ki, "Açıq qapı" günü ordu ilə cəmiyyət arasındakı vəhdətin artırılmasına geniş imkan yaradır. "Bu gün Azərbaycan Ordusunun beynəlxalq standartlar səviyyəsində inkişafı üçün bütün zəruri addımlar atılır. Ordu quruculuğuna dair bütün mühüm tədbirlər müvəffəqiyyətlə, ardıcıl surətdə, mövcud siyasi kursun tələblərinə uyğun şəkildə yerinə yetirilir.

Xalq öz ordusunu o zaman sevir ki, ona güvənir, döyüş qüdrətinə, qələbə əzminə inanır və mənəvi-psixoloji dəstəyini ondan əsirgəmir. Bu dəstək dövlət başçısının orduya, onun maddi-texniki təchizatının, sosial-məişət şəraitinin yaxşılaşdırılmasına göstərdiyi qayğı ilə vəhdət təşkil edəndə daha səmərəli nəticələr verir.

Əsgər Elşən Məmmədovun atası Eldar Məmmədov yaradılan şəraitdən, gördüklərindən heyrətə gəldiyini dedi.

- Müasir standartlara cavab verən hərbi hissədə gördüklərimiz, olduqca könül xoşluğu yaratdı. Güclü ordumuz, müasir silah-texnikamız var. Məişət şəraiti isə çox gözəldir. Hazırda isə övladımla birlikdə nahar edirik. Əsgər yeməyinin keyfiyyətli olması da sevindirdi məni. Əvvəlki illərdə ordumuzla bağlı müəyyən xoşagəlməz söhbətlərin meydana çıxmasının şahidi olurduq. "Açıq qapı" gününün keçirilməsi əlamətdar hadisədir. Biz valideynlər övladlarımızın sosial-məişəti ilə yaxından tanış oluruq Hər birimiz müasir standartlara cavab verən hərbi hissəni öz gözümüzlə gördük.

Prezident İlham Əliyevə, Müdafiə naziri general-polkovnik Zakir Həsənova və bütün komandir heyətinə təşəkkürümü bildirirəm ki, əsgərlərimiz üçün yüksək şərait yaradıblar.

Valideynin sözlərinə görə, işğalçı Ermənistanın ordusunu Azərbaycanın Silahlı Qüvvələri ilə müqayisə etmək ən azından sadəlövhlük olardı. "Azərbaycan Ordusunu yalnız dünyanın ən inkişaf etmiş dövlətlərinin silahlı qüvvələri ilə müqayisə etmək olar. Azərbaycan Ordusu çoxdan arzuladığımız səviyyəyə çatıb. Silahlı Qüvvələrimizlə



fəxr edirik. Hər bir azərbaycanlı ailəsi övladını çox həvəslə ordu sıralarında qulluğa göndərir".

Tədbir konsert proqramı ilə başa çatdı.

* * *

Dan yeri ağarır, göylərə gümüşü bir parıltı gəlir. Xəfif və sərin yay küləyi bağlardan, bağçalardan, güllərdən, çiçəklərdən ötərək hər yerə ətir gətirir. Günəşin qızılı saçaqları göyün üzünə səpələnir...

Hərbi hissənin ərazisinə daxil oluruq. Ümummilli lider Heydər Əliyevin, ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin, Azərbaycan klassiklərinin kəlamları əks olunan lövhələr diqqətimizi çəkir.

Bu il fevralın əvvəllində yenidən tikilib istifadəyə verilən müasir hərbi şəhərcik üçrəngli bayraqlarımızla bəzədilib. Pöhrələnmiş ağaclar, gül kolları insan əməyinin zəhmətindən xəbər verir. Səliqə-sahman, təmizlik qəlbimizi riqqətə gətirir. Orduмuzda gedən quruculuq işləri ürəyimizi fərəh hissi ilə doldurur. Bir azdan əsgər valideynləri və onların yaxınları da, ictimaiyyət nümayəndələri də bu gözəllikləri görüb sevinəcəklər. Budur, əsgərləri ziyarətə gələn valideynlər, ictimaiyyət nümayəndələri, veteranlar, şəhid ailələri yavaş-yavaş bayram tədbirinin keçiriləcəyi meydana doğru irəliləyirlər. Hərbi hissənin şəxsi heyəti sıra meydanında düzülüb.

Mayor Qafqaz Əsgərov hərbi hissəyə təşrif buyurmuş qonaqları bir-bir təqdim edib Azərbaycan Respublikası Silahlı Qüvvələrinin keçdiyi inkişaf mərhələlərindən danışdı. O, çağdaş ordumuzun yaranması, formalaşması prosesinin böyük bir dövrünün ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu dedi: "Hələ Sovet dönəmində respublikamıza rəhbərlik etdiyi dövrlərdə ordu sıralarında milli zabit kadrlarının hazırlanmasına çalışan C.Naxçıvanski adına Hərbi Məktəbin təməlini qoymaqla bu yolda önəmli addım atan Ümummilli Liderimiz bununla da demək olar ki, gələcək müstəqil Azərbaycan Respublikasının müdafiəçilərinin yetişdirilməsinə öz bəhrəsini verir. Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra ulu öndər Heydər Əliyevin ən çox diqqət yetirdiyi sahələrdən biri də ordu quruculuğu idi".

Sonra söz Yevlax rayon İcra Hakimiyyəti başçısının müavini Namiq Süleymanova verildi. O, hərbi qulluqçuları Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 99-cu ildönümü və müqəddəs Ramazan bayramı münasibətilə təbrik edib, onlara can sağlığı, uzun ömür və xidmətlərində uğurlar arzuladı.

Yevlax rayon Qadınlar Şurasının sədri, əməkdar jurnalist Əminə Əhmədova, şəhid qardaşı Bəhmən Gülmalıyev, baş gizir Ramiz Abdulov və başqaları da bayram təbriklərini söylədilər.

Polkovnik Oruc Abdullayev da şəxsi heyəti, qonaqları bayramlar münasibətilə təbrik edib, təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan müasir Azərbaycan ordusunun keçdiyi inkişaf yolundan, bu gün Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində ordu quruculuğunda həyata keçirilən islahatlardan danışdı.

Bayram tədbiri kəşfiyyat bölüyünün nümunəvi çıxışları ilə davam etdi.

Yevlax rayon Aran qəsəbəsi uşaq musiqi məktəbinin və Yevlax rayon Yədilli kənd mədəniyyət evinin yaradıcı kollektivləri şəxsi heyət qarşısında maraqlı, rəngarəng konsert proqramı ilə çıxış etdilər.

**"Azərbaycan Ordusu"**

# “Silahlı Qüvvələrimiz - dünən və bu gün”

*Azərbaycan Hərb Tarixi Muzeyində Silahlı Qüvvələrin yaradılmasının 99 illiyinə həsr olunmuş "Silahlı Qüvvələrimiz - dünən və bu gün" mövzusunda tədbir keçirildi.*



Tədbirdə Müdafiə Nazirliyinin idarə və müəssisələrinin, hərbi hissələrin, xüsusi təyinatlı hərbi məktəblərin və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edirdi.

Öncə ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri açıq elan edən Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə "26 iyun - Milli ordu quruculuğunun şərəfli səhifəsidir" adlı məruzəylə çıxış edərək bildirdi ki, hər bir dövlətin müstəqilliyinin, suverenliyinin əsas atributlarından biri də silahlı qüvvələridir. "Azərbaycan Ordusunun 1918-ci ildən başlayan çətin və şərəfli inkişaf yolu hərb tariximizin möhtəşəm salnaməsidir. Bu tarixi başlanğıcın əsası torpaqlarımızın bütövlüyü naminə canlarını qurban vermiş babalarımızın müqəddəs qanı ilə qoyulmuşdur... Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə 1918-ci il iyunun 26-da ilk hərbi hissə - əlahiddə korpus yaranır. Avqustun 1-də Hərbi Nazirlik təsis edilir. 1918-ci il dekabrın 25-də isə peşəkar hərbçi, çar ordusunda şərəfli yol keçmiş general Səməd bəy Mehmandarov hərbi nazir, general-leytenant Əliağa Şıxlinski nazir müavini təyin edilirlər. Qısa müddətdə 30 minlik ordu formalaşdırılır."

Silahlı Qüvvələrimizin tarixi haqqında geniş məlumat verən müzey rəisi qeyd etdi ki, ulu öndər Heydər Əliyev 1971-ci il iyunun 20-də Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbi yaratdı. Bu Hərbi Liseyin milli zabit kadrlarımızın yetişdirilməsində və o dövrdə ali hərbi məktəbləri bitirmiş şəxslərin silahlı qüvvələrin formalaşmasında müstəsna rolu vardır...

Müzeyin baş elmi işçisi tarix üzrə fəlsəfə doktoru Zəfər Kərimov "Milli Ordumuz dövlətimizin əsas təminatçısıdır" adlı çıxışında bildirdi ki, 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra ölkəmizdə ictimai-siyasi vəziyyət çox gərgin idi... "Ulu öndərin 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycan dövləti və dövlətçiliyimiz real təhlükələrdən xilas oldu. Ordu quruculuğu istiqamətində çox inamlı addımlar atılmağa başlandı. Qısa müddət ərzində müstəqilliyimizin təminatçısına çevrilən, vahid komandanlığa tabe olan güclü və qüdrətli ordu yaradıldı... Bu gün hər birimiz fəxrlə deyə bilərik ki, Ali Baş Komandan İlham Əliyevin göstərdiyi diqqət və qayğı sayəsində ordumuz regionun ən güclü ordusudur. Aprel döyüşləri ordumuzun gücünün bariz nümunəsidir."

Tədbirdə söz alan "Zirvə" ziyalılar təşkilatının prezidenti, ictimai xadim, rəssam Minayə Feyzullayeva Silahlı Qüvvələrimizə Qələbə müjdəsi arzuladı. Muzeyə özünün çəkdiyi Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və Milli Qəhrəman Albert Aqarunovun rəsmlərini hədiyyə etdi.

Silahlı Qüvvələrimizin 100 illiyini Qarabağda keçirməyi arzulayan Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev bayram arzularını bildirdi.

Sonda qısametrajlı film nümayiş olundu.

**Leytenant Günay TAĞIYEVA, "Azərbaycan Ordusu"**

---



*Bu günlərdə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ildönümü münasibəti ilə tədbir keçirildi. Mərasimdə İkinci dünya, Qarabağ, Əfqanıstan müharibələri, Əmək və Silahlı Qüvvələr veteranları, zabit və kursantlar, həmçinin ictimaiyyətin nümayəndələri iştirak edirdi. Tədbirdə öncə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.*

Silahlı Qüvvələr Günündə 100 yaşı tamam olan general-leytenant Hüseyn Cümşüd oğlu Rəsulbəyova həsr edilmiş sənədli film nümayiş etdirildi. Azərbaycan xalqının cəsur oğlu Böyük Vətən müharibəsi zamanı Odessa, Kerç, Sevastopol və Şimali Qafqaz uğrunda gedən döyüşlərdə şücaət göstərib. Müharibədən sonra Bakı Hava Hücumundan Müdafiə dairəsi qoşunlarında məsul hərbi vəzifələrdə xidmət edib, ordudan tərxis edildikdən sonra Azərbaycanda rabitə naziri işləyib. Cəsur sərkərdənin həyat və fəaliyyəti barədə qürur doğuran faktlar mərasim iştirakçıları tərəfindən maraq və alqışlarla qarşılandı.

Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış edərək Silahlı Qüvvələrimizin keçdiyi inkişaf yolundan danışdı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə aparılmış ordu quruculuğuna toxunaraq o, bildirdi ki, Milli Ordu Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas etdi. "Azərbaycan Milli Ordusu Qarabağda ermənilərlə döyüşdə böyük uğurlar qazandı. Muğanda və Əsgəranda milli hökumətə qarşı baş vermiş qiyamları yatırmaqda yüksək səriştə göstərdi. Ancaq 1920-ci ilin aprel işğalı Azərbaycanın milli ordusunun tam formalaşdırılmasına imkan vermədi. Ordu rəhbərlərinin əksəriyyəti güllələndi".

Polkovnik Cəlil Xəlilovun sözlərinə görə, Azərbaycan oğulları nəyə qadir olduqlarını İkinci dünya müharibəsində alman faşizminə qarşı döyüşlərdə də əzmlə nümayiş etdirdilər.

Müstəqil Azərbaycanda ordu quruculuğu ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbin Azərbaycanın paytaxtında yaradılmasına çətinliklə də olsa, nail olan müdrik rəhbər azərbaycanlı gənclərin SSRİ-nin hərbi təhsil ocaqlarında zabit ixtisaslarına yiyələnməsi üçün əlindən gələni əsirgəməmişdi.

Xalqın təkidli tələbi ilə ikinci dəfə ölkəmizdə hakimiyyətə qayıtmış Ulu Öndər Azərbaycanı xaos və dərəbəylik mühitindən xilas etməklə yanaşı, elmi əsaslarla ordu quruculuğuna başladı və qısa zamanda Silahlı Qüvvələrimizdə böyük dönüş yarandı.

Hazırda ordu quruculuğu prosesinin Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirildiyini bildirən Veteranlar Təşkilatının sədr müavini qeyd etdi ki, ötən il aprelin 2-dən 5-dək cəbhə xəttində baş verənlər ordumuzun gücünü və döyüş əzmini aydın göstərdi. "Möhtərəm prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin başçılığı altında bu gün ermənilərin işğalı altında olan Azərbaycan torpaqlarının azad ediləcəyi gün də uzaqda deyil. Biz veteranlar buna inanır və bu müqəddəs işdə ordumuzun yanında olduğumuzu bildiririk".

Tədbirdə çıxış edən İkinci Dünya Müharibəsinin veteranları Samət Nəbiyev, birinci dərəcəli kapitan Aleksandr Qritçenko, ehtiyatda olan polkovnik Adil Haqverdiyev və başqaları daim Silahlı Qüvvələrimizin yanında olacaqlarını, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsində bundan sonra da çalışacaqlarını qürur hissilə bəyan etdilər.

**Əbülfət QASIMOV, "Azərbaycan Ordusu"**

---

Silahlı Qüvvələr Günü C.Naxçıvanski adına Hərbi Liseydə də təntənəli qeyd edildi. Mərasimi Hərbi Lisey rəisinin müavini polkovnik-leytenant Kamran Nəsibov açıq elan etdikdən sonra ulu öndər Heydər Əliyevin, Vətənimizin müdafiəsində şəhid olan oğul və qızlarımızın ruhu bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət himni ifa edildi.

Mərasimdə çıxış edən C.Naxçıvanski adına Hərbi Liseyin rəisi vəzifələrini icra edən polkovnik Elman Namazov çıxış edərək bildirdi ki, ümummilli liderimiz Heydər Əliyev yenidən hakimiyyətə dəvət olunduğu ilk günlərdən ordu quruculuğunda mühüm strategiya həyata keçirilməyə başladı.



"Həmin günlərdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyevin tez-tez ön cəbhəyə getməsi, zabit və əsgərlərə səngərlərdə görüşməsi, onların qayğı və ehtiyacları ilə maraqlanması, döyüşdə fərqlənənləri yerindəcə mükafatlandırması, ordunun şəxsi heyətinə yeni ruh, yeni qüvvə verirdi. Qarabağ bölgəsində gedən döyüşlərdə Azərbaycan ordusunun əldə etdiyi uğurlar qısa vaxtda öz müsbət təsirini göstərdi və qarşısında dayanan ordunun gücünü hiss edən düşmən 1994-cü il mayın 12-də atəşkəsi imzalamağa məcbur oldu.

Ümummilli lider Heydər Əliyevin müdrik, uzaqgörən daxili və xarici siyasəti sayəsində Silahlı Qüvvələrin müasir texnika və silahlarla təchiz olunması, ordunun zabit kadrları ilə komplektləşdirilməsi, hərbi hissələrin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi intizamın möhkəmləndirilməsi sahəsində mühüm nailiyyətlər əldə olundu".

Polkovnik çıxışında qeyd etdi ki, Ulu Öndərimizin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ordu quruculuğu məsələrini daim diqqət mərkəzində saxlayır. "Cənab Prezident öz çıxışlarından birində demişdir: "Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır".

Bu gün Azərbaycan ordusunun hər bir əsgər və zabiti dövlət rəhbərliyinin diqqət və qayğısı sayəsində Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və nizamnamələrə sadiq qalaraq respublikamızın ərazi bütövlüyünün bərpasına, torpaqlarımızı işğalçılardan azad etməyə hər an qadirdir".

Sonra Silahlı Qüvvələr Günü münasibəti ilə xidmətdə və tədrisdə fərqlənənlər mükafatlandırıldılar.

**Vahid MƏHƏRRƏMOV, C.Naxçıvanski adına Hərbi Lisey**



*Azərbaycan əsgəri... Vətəni təhlükələrdən qoruyan, lazım gələrsə canından-qanından da keçməyə hazır olan əsl vətəndaş...*

Ordu və cəmiyyət

# Məktublar əsgərlərə çatdırıldı

Düşmənə amansız, Vətənə sədaqətli olan Azərbaycan əsgəri Vətənini və torpağını qoruyur. Bu mənada əsgər cəmiyyətdə böyük ehtiramlarla əhatələnir, xidməti yüksək əhəmiyyətə malikdir.

Ordu və cəmiyyət münasibətləri hamı kimi bizi də duyğulandırır, hamımıza könül xoşluğu verir. Ordu və cəmiyyət münasibətlərinin düzgün məcrada inkişaf etməsində hər bir vətəndaş körpü rolunu oynamalıdı. Tanınmış insanlarla, yerli ziyalılarla, musiqiçilərlə görüşlərin, konsert proqramlarının, əyləncəli tədbirlərin təşkili, əsgərlərə məktubların yazılması və göndərilməsi hərbi kollektivin əhval-ruhiyyəsinə olduqca müsbət təsir göstərir. Bu hadisələr yaddaşlara həkk olunur, hərbi xidmətin ən yaddaqalan anlarına çevrilir.

Əsgər həyatının ən gözəl anlarından biri də əsgərə ünvanlanan məktubun gəlişidir. Məktubda yazılan hər bir cümlə əsgər üçün daha dəyərli olur.

Bu mənada vətəndaşların "ASAN Könüllüləri" təşkilatının təşəbbüsü və "www.esgeremektub.com" saytı vasitəsi ilə yazdığı məktublar Silahlı Qüvvələrin yaranmasının 99-cu ildönümü münasibətilə "N" hərbi hissəsində keçirilən bayram tədbirləri çərçivəsində əsgərlərə çatdırıldı.

Kampaniyanın əhəmiyyətini vurğulayan hərbi hissə komandirinin şəxsi heyətlə iş üzrə müavini polkovnik-leytenant Əbülfət Xəlilov söhbətə populyar bir sualla başladı: "Əsgər nə istəyir? Əsgər təbii ki, bir insandır və onun mənəvi tələbatları vardır. Bu tələbatlara hörmət etmək lazımdır. Hərbi hissədə mütəmadi olaraq mədəni-əyləncəli tədbirlərin keçirilməsi olduqca gərəklidir. Bu mənada, mədəniyyət işçilərinin, musiqiçilərin, teatr-kino xadimlərinin, şairlərin, yazıçıların, ziyalıların hərbi hissələrə gəlişlərinə, müxtəlif səpkidə, xüsusilə də vətənpərvərlik ruhunda bədii və sənədli filmlərin nümayiş olunmasına, hərbi hissənin fəallarının iştirakı ilə müxtəlif əyləncəli-mədəni tədbirlərin təşkilinə, hər bir vətəndaşdan əsgərlərin ünvanına məktub göndərilməsinə böyük diqqət verilməlidir. Bunlar həm əsgərlərin mədəni istirahətinə, həm də vətənpərvərlik hisslərinin güclənməsinə xidmət edir. Mülki həyatda hər gün televiziya ekranlarından izlədiyi məşhurları hərbi hissədə görən, onlarla məktub vasitəsilə ünsiyyətdə olan əsgərlər cəmiyyətin əzizi olduqlarını, xalq tərəfindən necə sevildiklərini anlayırlar".

Əsgərə məktub layihəsinin keçən ilin aprel ayından başladığını bildirən "ASAN Könüllüləri" təşkilatının Könüllülərlə iş departamentinin rəhbəri Həsənxan Həsənxanlı əsgərə dəstəklə bağlı təmsil etdiyi təşkilatın bir çox layihələri olduğunu qeyd etdi: "Əsgərlərə yönəlik bir çox layihələri reallaşdırmışıq. Yəni bu ilk kampaniya deyil, ancaq ən böyüyüdür. Gördüyünüz məktubları müxtəlif kateqoriyalı, müxtəlif yaş həddinə malik vətəndaşlar, gənclər, məktəblilər yazıb. Keçirilən kampaniyanın əsas məqsədi əsgərlərdə motivasiya yaratmaq və xalqımızın onların arxasında olduğu inamını formalaşdırmaqdı".

5 saylı "Asan Xidmət" mərkəzinin nümayəndəsi Toğrul Axundov məktubların yığılması prosesindən söz açdı: "Asan xidmət mərkəzlərində məktubların yığılması üçün qutular qoyulub. Vətəndaşlar yazdıqları məktubları həmin qutulara atır. Yığılan məktublar baş ofisə gətirilir. Oxunub seçildikdən sonra hərbi hissələrə çatdırılır. Biz burada vasitəçi rolunu oynayırıq. Nə yazan tərəf oxuyan tərəfi tanıyır, nə də oxuyan tərəf yazan tərəfi. Ən əsası odur ki, yazılan məktublar səmimiyyətlə yazılıb. Səmimiyyətlə yazılan fikirlər əsgərlərin gözlərində bir təbəssüm, doğmalıq hiss etdirə bilirsə, deməli, layihə uğurlu layihədi".

1 saylı "Asan Xidmət" mərkəzinin əməkdaşları - Tural Bayramlı, Kamran Beydullayev, Şükür Məmmədov bu kampaniyaya qoşulmağı özlərinin vətəndaşlıq borcu olduğunu bildirdilər. Cəmiyyətdən gələn təşəbbüsə qoşulan kollektivin üzvləri bütün ölkənin vətəndaşlarının əsgərlərimizlə ünsiyyətdə olmağa, məktub yazmağa nə qədər həvəsli olduqlarının şahidi olduqlarını qeyd etdilər: "Asan Xidmət"in əsas funksiyalarından biri də əməkdaşların fəaliyyətinin əlaqələndirilməsidir. O baxımdan qeyd etmək istərdik ki, ordu-cəmiyyət münasibətləri qarşılıqlı hörmət, inam və dialoq prinsipi üzərində qurulmalıdır. Bu kampaniya da ona xidmət edir ki, əsgərlər hər zaman cəmiyyətin diqqət və qayğısı ilə əhatə olunduqlarını hiss etsinlər".

APA İnformasiya Agentliyinin baş direktoru, "APA Holding"in Direktorlar Şurasının sədri Nurşən Quliyev belə bir layihəni ərsəyə gətirməkdə məqsədin Silahlı Qüvvələr gününə töhfə vermək olduğunu dedi: "İstədik ki, ordu günündə vətəndaşların arzularını, ürək sözlərini əsgərlərimizə çatdıraq. Qısa müddət ərzində vətəndaşlardan sayta minlərlə məktub yazılıb. Məktublardan görünür ki, bütün ölkə, bütün vətəndaşlar əsgərlərimizlə, ordumuzla nəfəs alır, onlarla qürur duyur. Bu məktublar fərdi şəkildə konkret olaraq hansısa əsgərə ünvanlanmasa da, hər bir əsgərə göndərilmiş məktublardır. Bu məktublar doğmanın doğmasına, əzizin əzizinə yazdığı məktublardır. Sonra məktublar arasında seçilən üç məktub şəxsi heyət qarşısında oxundu.



6 yaşlı bir məktəblinin məktubu əsgərlərə daha çox kövrək anlar bəxş etdi: "Salam əsgər! Mənim 6 yaşım var. Mən hər gün rahat yaşamağıma görə sizlərə borcluyam. Böyüyəndə mən də əsgər olub sizin kimi Vətənin keşiyində duracam, Vətəni və vətəndaşlarımızı qoruyacam. Allah sizlərə yar olsun!

Əsgər anasının məktubunun oxunması ilə əsgərlərin arasına dərin bir sükut çökdü. Məktubda deyilir: "Əziz oğlum, salam. Sən gedəni çox darıxıram. Amma qəlbimdə qürur hissi var. Axı mən əsgər anasıyam. Sən indi təkcə mənim yox, bu gözəl Vətənin oğlusan. Bu qürur hissini mənə yaşadan sənsən, igid balam. Buna görə sənə təşəkkür edirəm. Allah bütün balalarımızı qorusun. Allah bütün əsgərlərimizi qorusun". Məktublar əsgərlərə paylandı.

Məktublarla tanış olduqdan sonra əsgərlərin bəzilərindən təəssüratlarını bölüşməyi xahiş etdim.

Əsgərlər Heydər Heydərov və Nurlan Sultanlı iftixar hissi keçirdiklərini, bu xalqın övladı olduqlarından qürur duyduğunu bildirdi.

- Xalqımızdan aldığımız bu dəstək və diqqətdən sonra bütün dünyaya bəyan edirik ki, müstəqil Azərbaycan dövlətinin ona layiq, onun müstəqilliyini qorumağa və möhkəmləndirməyə qadir olan güclü ordusu var. Bizlər də layiqli xalqın övladları, güclü bir ordunun əsgərləriyik. Xalqımıza tezliklə Qələbə bəxş edəcəyik.



**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

## Azərbaycan və Türkiyə hərbi kəşfiyyatçılarının görüşü keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iyunun 29-da Bakıda Azərbaycan və Türkiyə Silahlı Qüvvələri hərbi kəşfiyyat nümayəndələrinin görüşü keçirilib.

Tərəflər ölkələrimiz arasında hərbi kəşfiyyat sahəsində birgə planları, əməkdaşlığın inkişaf perspektivlərini, məlumat mübadiləsi, regional və kiber təhlükəsizlik, mütəxəssislərin qarşılıqlı səfərlərinin təşkili, təlimlərin keçirilməsi və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

## "Ermənistan müdafiə nazirinin diletant çıxışı həyasızlıqdan başqa bir şey deyil"

Ermənistanın müdafiə naziri Vigen Sarkisyanın müharibədə ölkəmizə ağır zərbə vurulacağı və Azərbaycan Ordusunun guya son 10 gün ərzində 8 nəfər itki verməsi barədə fikirlərini acı istehza ilə qarşılayır, bildiririk ki, onun heç bir real fakta əsaslanmayan, təbliğat məqsədilə yayılan bu diletant çıxışı yalan və həyasızlıqdan başqa bir şey deyil.

AZƏRTAC xəbər verir ki, bu fikir Azərbaycan Müdafiə Nazirliyinin açıqlamasında yer alıb.

Açıqlamada deyilir ki, Azərbaycana ağır zərbə vurulmasına Ermənistanın nə hərbi, nə iqtisadi, nə insani resursları, nə də digər amillər imkan verir. Azərbaycan əsgəri və ordumuzun arsenalındakı ən müasir, dağıdıcı qüvvəyə malik döyüş texnikası və silahlar işğalçının istənilən təhdidinin qarşısını almağa, onu məhv edərək ərazi bütövlüyümüzü bərpa etməyə qadirdir.

İtkilərlə bağlı məsələdə isə məqsədəuyğun olardı ki, V.Sarkisyan öz ordularındakı ölüm hadisələri ilə məşğul olsun. Cəbhədəki itkilərinin sayını və ordusundakı digər ölüm faktlarını daim gizlədən məhz Ermənistan tərəfidir. V.Sarkisyan bu cür cəfəng bəyanatlar səsləndirmək əvəzinə, Azərbaycan Ordusunun cavab tədbirləri nəticəsində ermənilərin son günlərdə verdiyi itkilərin həqiqi sayını ictimaiyyətə düzgün çatdırsa idi daha səmimi görünərdi.

# Rusiyadan alınan hərbi texnikanın ölkəmizə gətirilməsi davam edir

*Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasındakı hökumətlərarası razılaşmaya əsasən və uğurla inkişaf edən hərbi-texniki əməkdaşlıq çərçivəsində ölkəmizə ən yeni hərbi texnikanın plana uyğun çatdırılması həyata keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Bakı limanına gətirilən çoxlu sayda müasir silahlar yaxın vaxtlarda cəbhəboyu zonaya göndəriləcək.

Bu silahlar düşmənin zirehli texnikası, mühəndis-istehkam qurğuları, kiçiksürətli hava hədəfləri, canlı qüvvəsi və digər hərbi obyektlərinin vurulması üzrə Silahlı Qüvvələrimizin ön xətt bölmələrinin döyüş və manevr imkanlarını artıracaq.

Rusiya hərbi texnikası və silahlarının Azərbaycana gətirilməsi davam edəcəkdir.

Eyni zamanda 26 iyun - Azərbaycan Silahlı Qüvvələri Günü ərəfəsində "Rosoboroneksport" SC-nin Baş direktoru Aleksandr Mixeyev birincilər sırasında Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adına təbrik məktubu ünvanlayıb.

Təbrikdə qeyd edilir ki, ölkələrimizin birgə səyləri dövlətlərimizə fayda gətirəcək və Azərbaycanın müdafiə qabiliyyətinin möhkəmlənməsinə xidmət edəcəkdir.

Məktubda həmçinin bildirilir ki, hərbi-texniki əməkdaşlığın inkişafı Azərbaycan xalqının sülh və əmin-amanlığının təmin olunmasında Silahlı Qüvvələrinizin güc və qabiliyyətinin daha da artırılmasına xidmət edəcəkdir.

# Hərbi qulluqçuların Şəki şəhərinə gəzintisi təşkil edilib

*26 iyun - Silahlı Qüvvələr Günü münasibətilə Gəncə Qarnizonu Zabitlər Evinin təşkilatçılığı ilə bir qrup hərbi qulluqçunun Şəki şəhərinə gəzintisi təşkil edilib.*



Ekskursiya zamanı əsgərlər Yuxarı Karvansaray, Tacirlər küçəsi və Qala divarları memarlıq abidələrini gəzib, Rəşid Bəy Əfəndiyev adına Şəki Tarix Diyarşünaslıq muzeyi, Şəki Xalq Tətbiqi Sənəti muzeyi, Şəki Xan Sarayı ilə tanış olub, eləcə də Qədim Alban məbədi olan Dairəvi məbədə baxıblar.

Hərbi qulluqçular muzeylərdə toplanmış eksponatlarla tanış olub, Şəkinin qədim tarixi, zəngin mədəniyyəti, bölgənin adət-ənənələri barədə geniş məlumatlar əldə ediblər.

Ekskursiya zamanı Şəki Şəhər Dövlət tarix-memarlıq qoruğu tərəfindən hərarətlə qarşılanan əsgərlərimiz Ramazan bayramı münasibətilə təşkil olunmuş musiqili məclisdə iştirak edib, Qala divarları kompleksində yerləşən Sənətkarlar evində şəbəkə və əl ilə hazırlanan sənət əsərləri ilə də tanış olublar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



*Hərbi ənənələr, yeniliklər*

# "Vaşaq" snayper tüfəngi

*Azərbaycan Müdafiə Sənyesi Nazirliyi (MSN) Türkiyədə keçirilən İDEF-2017 beynəlxalq müdafiə sərgisində "Vaşaq" adlı yeni snayper tüfəngini ilk dəfə nümayişə çıxarıb.*

Azərbaycan Müdafiə Sənyesi Nazirliyinin istehsal etdiyi yeni "Vaşaq" snayper tüfəngi may ayının ilk günlərində Türkiyədə keçirilmiş İDEF-2017 beynəlxalq müdafiə sərgisində nümayiş etdirilib. "AzeriDefence"nin məlumatına görə, bundan əvvəl "Vaşaq" 2016-cı ilin sentyabr ayında Bakıda ADEX-2016 sərgisində stendlərdə yer almışdı.

Bikalibr snayper tüfəngi olan "Vaşaq"da zərbə mexanizmini və lüləsini dəyişməklə iki fərqli kalibrdə patronla - 338 Lapua Magnum və 308 Win (7.62x51) patronlardan atəş açmaq imkanı mövcuddur.

Snayper tüfəngi üzərindəki pikatini tamasaları vasitəsi ilə müxtəlif optik nişangahlarla komplektləşdirilə bilir. Silah qatlanan və hündürlüyü tənzimlənən qundağa, ön hissədə ayağa sahibdir. Snayper tüfəngi tək-tək doldurmaqla atılır.

**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan taekvandoçusu Koreyada keçirilən dünya çempionatının qalibi olub



Azərbaycanın taekvando üzrə yığma komandasının üzvü Milad Beigi Hərçəqani Koreya Respublikasında keçirilən dünya çempionatının qalibi olub.

Yarışda 80 kiloqram çəki dərəcəsində mübarizə aparan təmsilçimiz M.Hərçəqani final qarşılaşmasında rusiyalı rəqibi, 2013-cü il dünya çempionatının bürünc medalçısı Anton Kotkovu 21:3 hesabı ilə məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Həmçinin komandamızın digər üzvü Məhəmməd Məmmədov (63 kq) dünya çempionatını bürünc medalla başa vurub.

## Azərbaycan kikboksçusu dünya çempionu titulu uğrunda mübarizə aparacaq



Azərbaycanın və "Qəbələ" idman klubunun kikboksçusu Alim Nəbiyev növbəti qələbəsini qazanıb.

Təmsilçimiz 2017-ci ildə ilk döyüşünü Çində keçirib.

A.Nəbiyev kikboksinq üzrə "Kunlun Fight" turnirinə uğurla start verib. O, çinli idmançı Çanq Yanqla qarşılaşıb. İdmançımız hər üç raundda rəqibindən üstün olduğu döyüşdən 30:27 hesablı qələbə ilə ayrılıb. Bununla da A.Nəbiyev "Kunlun Fight"ın dünya çempionu titulu uğrunda növbəti turnirdə mübarizə aparmaq imkanı qazanıb.

## Sərbəst güləşçilərimiz Avropada ikinci olublar



Almaniyanın Dortmund şəhərində gənclər arasında güləş üzrə Avropa çempionatı davam edir.

İlk iki yarış günündə mübarizə aparan sərbəst güləşçilərimiz çempionatı 3 qızıl, 2 gümüş və 1 bürünc medalla başa vurublar. Qızıl medalları yığmamıza Əfqan Xaşalov (55 kq), Əli Rəhimzadə (60 kq) və Hacımurad Məhəmmədsəidov (84 kq) qazandırıblar. Yalnız final görüşündə uduzan Şahin Muxtarov (50 kq) və Mahal Novruzov (66 kq) gümüş, Məhəmmədrəsul Qazıməhəmmədov (96 kq) isə bürünc medal əldə ediblər. Bu nəticə ilə yığmamız çempionatı komanda hesabında 58 xalla ikinci pillədə tamamlayıb. 67 xal toplayan Rusiya birinci, 52 xal toplayan Gürcüstan isə üçüncü pillədə qərarlaşıb.

## Azərbaycanın paralimpiyaçı idmançısının böyük uğuru



"Neftçi" idman klubunun paralimpiyaçısı Gündüz İsmayılov (87 kq) Azərbaycanın idman tarixində ilk dəfə olimpiyaçılarla birgə turnirdə iştirak edib.

Tbilisidə keçirilən pauerliftinq üzrə dünya çempionatında paralimpiyaçımız finalda iranlı olimpiyaçılarla mübarizə aparıb. G.İsmayılov rəqiblərinə qalib gələrək iki qızıl medala sahib olub.

Yarışlarda iştirak etmək üçün paralimpiyaçımız özü müraciət edib.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Əfəndiyev Ramil Saiq oğluna 2016-cı ildə verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

Əsgər Hümbətov Cavidan Mirzəli oğluna 2016-cı ildə verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 300
Nüsxə 4650